"Unibank" Kommersiya Bankı
Açıq Səhmdar Cəmiyyəti Müşahidə Şurasının
"24" iyun 2025-ci il tarixli
Qərarı (Protokol № 05 ) ilə
təsdiq edilmişdir.
Müşahidə Şurasının Sədri

_______________ E. Qəribov

# "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Dayanıqlılıq

# SİYASƏTİ

# Mündəricat

1. Ümumi müddəalar ........................................................................................3
2. Siyasətin məqsədi........................................................................................3
3. Fəaliyyətin təşkili........................................................................................3
4. Prinsiplər........................................................................................4
5. Yekun müddəalar........................................................................................5
Əlavə 1. İstisna siyahısı........................................................................................6

## 1. Ümumi müddəalar

1.1. "Unibank" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Bank") Dayanıqlılıq Siyasəti (bundan sonra "Siyasət") Azərbaycan Respublikasının Mərkəzi Bankının normativ xarakterli aktlarına və "Dayanıqlı maliyyə prinsipləri"nə, Beynəlxalq Maliyyə Korporasiyasının "Ətraf mühit və Sosial dayanıqlılıq üzrə Fəaliyyət Standartları" və "Korporativ İdarəetmə üzrə Matrisi", İqlim Dəyişmələri ilə bağlı Maliyyə Göstəricilərinin Açıqlanması üzrə İşçi Qrupunun tövsiyələri, habelə digər beynəlxalq standartlar və qabaqcıl təcrübəyə uyğun olaraq hazırlanmışdır;

1.2. Bu Siyasət, Bankın dayanıqlılıq və məsuliyyətli bankçılıq üzrə yanaşmasını və korporativ idarəetmə modelini, iqlim, ətraf mühit və sosial məsələlərin Bankın fəaliyyətinə və qərarvermısinə inteqrasiyasını müəyyən edən prinsipləri müəyyən edir.

## 2. Siyasətin məqsədi

2.1. Bank dayanıqlı və məsuliyyətli bankçılıq yanaşmasını iqtisadiyyat, ətraf mühit və cəmiyyətin inkişafına töhfə vermək məqsədilə rəhbər tutmaqla, maraqlı tərəflər üçün uzunmüddətli dövrə dəyər yaratmağı hədəfləyir.

2.2. Bank ölkənin iqlim hədəflərinə və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində müəyyən edilmiş "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" milli prioritetinə töhfə vermək istiqamətində çalışır.

2.3. Bank ölkənin dayanıqlı inkişaf məqsədlərinə nail olmasına öz fəaliyyətində və qərar verməsində iqtisadi, ekoloji, sosial və idarəetmə (ESİ) faktorlarını nəzərə almaqla və tətbiq etməklə töhfə verir.

2.4. Bankın dayanıqlılıq siyasəti onun ətraf mühit, müştəriləri, cəmiyyət qarşısında, habelə işəgötürən kimi məsuliyyət və öhdəlikləri çərçivəsində formalaşır.

## 3. Fəaliyyətin təşkili

3.1. Bank rəhbərliyi tərəfindən dayanıqlılıq və məsuliyyətli bankçılıq üzrə yanaşmanın tətbiqi və bundan irəli gələn tədbirlərin və layihələrin həyata keçirilməsini dəstəkləyən korporativ idarəetmə modeli formalaşdırılır.

3.2. Dayanıqlılıq və məsuliyyətli bankçılıq prinsiplərinin, habelə iqlim risklərinin və imkanlarının Bankın strateji hədəfləri və fəaliyyətinə inteqrasiyasına Müşahidə Şurasının Dayanıqlılıq Komitəsi nəzarət edir.

3.3. Bankın dayanıqlılıq üzrə yanaşmasının, siyasətinin və strateji hədəflərinin formalaşdırılmasını, onların həyata keçirilməsini və bundan irəli gələn tədbir və təşəbbüslərin icrasını, habelə Bankın dayanıqlı maliyyə və ESİ profilinin gücləndirilməsini İdarə Heyətinin Sədri tərəfindən rəhbərlik edilən Dayanıqlı Maliyyə və ESİ Komitəsi həyata keçirir.

3.4. Bankın fəaliyyətinə, korporativ idarəetmə sisteminə, maliyyə xidmət və məhsullarına, habelə risklərin idarəedilməsi və daxili nəzarət çərçivəsinə dayanıqlı maliyyə prinsiplərinin və ESİ faktorlarının tətbiqini və koordinasiyasını Dayanıqlılıq üzrə menecer həyata keçirir.

3.5. Siyasət Bankın Dayanıqlılıq Strategiyasını və onun icrasını dəstəkləyir.

3.6. Bu Siyasətdən irəli gələn məsələlər müvafiq daxili sənədlərlə tənzimlənir.

# 4. Prinsiplər

4.1. Bank ətraf mühitə, müştərilərinə, cəmiyyətə qarşı və işəgötürən kimi öz fəaliyyətində aşağıdakı prinsipləri rəhbər tutur:

4.1.1. İqlim dəyişmələrinin təsirləri, o cümlədən digər ekoloji risk və fürsətləri nəzərə almaqla, ölkənin iqlim hədəfləri və milli strateji prioritetlərinə məsuliyyətli bankçılıq təcrübələrini tətbiq etməklə töhfə verir;

4.1.2. Öz fəaliyyəti nəticəsində birbaşa və ya dolayı yarana biləcək ekoloji və sosial təsirləri izləyir və idarə edir;

4.1.3. Qısa, orta və uzun müddətli müddətə ekoloji, o cümlədən iqlim dəyişmələri, sosial və idarəetmə faktorları üzrə hədəflər müəyyən edir. Orta və uzunmüddətli dövrə strategiyasını müştərilərin, habelə cəmiyyətin hüquq və maraqlarını nəzərə almaqla qəbul edir. Beynəlxalq maliyyə təşkilatlarının və qanunvericiliyin müəyyən etdiyi qadağan olunmuş fəaliyyətləri maliyyələşdirmir (Əlavə 1);

4.1.4. Qabaqcıl tələblərə cavab verən, sosial ədalətə əsaslanan iş mühiti formalaşdırılmasını, insan hüquqlarının qorunmasını hədəfləyir və bununla bağlı, aidiyyəti tərəfləri məlumatlandırır;

4.1.5. Dinə, cinsə, irqə, əqli və ya fiziki məhdudiyyətə, yaşa, və ya fikir fərqliliklərinə görə ayrı-seçkiliyi və bərabər imkan prinsipini pozan hər hansı diskriminasiyanı qəbul etmir və aradan qaldırmağı hədəfləyir. İşçi qüvvəsində müxtəlifliyi intellektual kapitalın əsas şərtlərindən biri kimi qəbul edir;

4.1.6. Qanunvericilik və iş yerinin təhlükəsizliyi və əməyin mühafizəsi çərçivəsində profilaktik, islahedici və önləyici proseslərini və tədbirlərini təkmilləşdirir;

4.1.7. Bank yaratdığı maddi və mənəvi dəyərləri səhmdarlar, müştərilər, işçilər və digər maraqlı tərəflər arasında ədalətli bölüşmək prinsipini rəhbər tutur;

4.1.8. Bankın dəyərləri və strateji hədəfləri çərçivəsində komandada əməkdaşlıq ruhunu yüksək dəyərləndirir;

4.1.9. Bərabər imkanlar prinsipi əsasında işçilərin təlim və inkişafını dəstəkləyir;

4.1.10. Bankçılıq fəaliyyətində müştəri yönümlülüyü rəhbər tutur. Müştəri məmnunluğunu və maliyyə inklüzivliyini təmin etməklə dəyər yaradan məhsul və xidmətlər təqdim etməyi hədəfləyir. Müştəriləri öz fəaliyyətində dayanıqlılıq prinsiplərini rəhbər tutmağa təşviq edir və müştərilərin dayanıqlı biznes modelinə keçidini dəstəkləyir. Məsuliyyətli bankçılıq yanaşmasına uyğun olaraq, müştəriləri ilə məhsul və xidmətləri ilə bağlı məlumatları tam, aydın və anlaşılan vəziyyətdə paylaşır;

4.1.11. Rüşvət, korrupsiya və digər analoji hərəkətlərə tolerantlıq göstərmir və müvafiq intizam tədbirləri görür;

4.1.12. Dayanıqlılıq üzrə əməkdaşların məlumatlandırılmasının və potensialının artırılması məqsədilə təlim və inkişaf proqramları təşkil edir;

4.1.13. Təchizatçı seçimində prosesi ədalətli, dürüst və qərəzsiz şəkildə biznes təcrübələrinə uyğun şəkildə həyata keçirir. Alqı-satqı və tədarük əməliyyatlarını peşəkarlıq, məhsul və xidmət keyfiyyəti, davamlılıq, etibarlılıq və qiymət kimi elementləri nəzərə alaraq icra edir;

4.1.14. Bank öz fəaliyyətində enerjiyə qənaəti, su resurslarının səmərəli istifadəsi, ənənəvi yanacaq növlərindən istifadəni, kağız sərfiyyatını azaltmaqla ətraf mühitə təsirini minimallaşdırmağı hədəfləyir;

4.1.15. Dayanıqlılıq təcrübələrinin davamlı təkmilləşdirilməsini hədəfləyir və bu sahədəki fəaliyyətini maraqlı tərəflərlə mütəmadi olaraq paylaşır;

4.1.16. Dayanıqlılıqla əlaqəli yerli, regional, o cümlədən beynəlxalq təşəbbüslərdə və əməkdaşlıq platformalarında aktiv rol oynayır.

## 5. Yekun müddəalar

5.1. Bu Siyasətdə nəzərdə tutulmuş funksiyaların doğru və vaxtında yerinə yetirilməsinə görə müvafiq idarəetmə orqanlarının üzvləri və digər əməkdaşları, həmçinin müvafiq struktur bölmələrin rəhbərləri və aidiyyəti əməkdaşlar bilavasitə məsuliyyət daşıyır.

5.2. Bu Siyasət hazırlanaraq müəyyən edilmiş ümumi və spesifik fəaliyyət prinsipləri ilə birbaşa əlaqəli olaraq Bank daxilində təsdiq edilmiş müxtəlif siyasətləri tamamlayacaqdır.

5.3. Bu Siyasət Müşahidə Şurası tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir.

5.4. Bu Siyasətə Dayanıqlılıq Komitəsi tərəfindən ildə bir dəfədən az olmayaraq yenidən baxılır və zərurət olduğu təqdirdə müvafiq dəyişikliklər edilir.

5.5. Bu Siyasətə dəyişikliklər Dayanıqlılıq Komitəsinin təqdimatı ilə Müşahidə Şurasının qərarı ilə edilir.

5.6. Bu Siyasətə uyğunluq daxili audit planı çərçivəsində audit olunur.

5.7. Bank dayanıqlılıq və məsuliyyətli bankçılıq fəaliyyəti ilə bağlı rəsmi internet səhifəsində mütəmadi məlumatlar açıqlayır.

*"UNİBANK" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətinin*

*"Dayanıqlılıq Siyasəti"nə*

**Əlavə 1**

## İstisna siyahısı

**1.** Ölkənin qanunlarına və ya qaydalarına, beynəlxalq konvensiyalara və sazişlərə əsasən qanunsuz hesab edilən və ya beynəlxalq qadağalara məruz qalan məhsul və ya fəaliyyətlərin istehsalı və ya ticarəti, məsələn, əczaçılıq məhsulları, pestisidlər/herbisidlər, ozon təbəqəsini dağıdan maddələr, Poliklorlu bifenillər, vəhşi təbiət və ya Beynəlxalq Təbiət və Vəhşi Flora və Faunanın Ticarətinə dair Konvensiya ilə tənzimlənən məhsullar;

**2.** Silah və sursatların istehsalı və ya ticarəti;

**3.** Alkoqollu içkilərin (pivə və şərab istisna olmaqla) istehsalı və ya ticarəti;

**4.** Tütün məhsullarının istehsalı və ya ticarəti;

**5.** Qumar, kazinolar və ekvivalent müəssisələr;

**6.** Radioaktiv materialların istehsalı və ya ticarəti. Bu, tibbi avadanlıqların, keyfiyyətə nəzarət (ölçmə) avadanlıqlarının və beynəlxalq maliyyə təşkilatının və ya qanunvericiliyin radioaktiv mənbənin əhəmiyyətsiz və/və ya kifayət qədər qorunan hesab etdiyi hər hansı avadanlığın alınmasına şamil edilmir;

**7.** Bağlanmamış asbest liflərinin istehsalı və ya ticarəti. Bu, asbest tərkibi 20%-dən az olan bağlı asbest sement təbəqələrinin alınması və istifadəsinə şamil edilmir;

**8.** Uzunluğu 2,5 km-dən çox olan torlarla dəniz mühitində torla balıqçılıq;

**9.** Zorakı əmək və uşaq əməyinin zərərli və ya istismarçı formalarını əhatə edən istehsal və ya fəaliyyətlər;

**10.** Əsas tropik meşələrdə kommersiya miqyaslı istifadə məqsədli ağac kəsmə əməliyyatları;

**11.** Dayanıqlı üsullarla saxlanılan meşələrdən istisna olmaqla digər meşələrdə ağac və ya meşə məhsullarının istehsalı və ya ticarəti.

*Layihə şirkətinin fəaliyyətlərinin əhəmiyyətli inkişaf təsiri olacağı hallarda, lakin ölkənin şəraiti İstisna Siyahısına düzəliş tələb etdikdə, məntiqilik testi tətbiq ediləcəkdir.*